**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№ 244/2** **27 avqust 2013-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin işinin yenidən qurulması haqqında**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikası Auditorlar Palatası haqqında" Əsasnaməyə və Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasityası (İFAC) qarşısında olan üzvlük öhdəliklərinə, habelə Beynəlxalq peşəkar qurumların normativ sənədlərinə dair qabaqcıl təcrübəsinin öyrənilməsini və ölkəmizdə tətbiqi ilə əlaqədar tövsiyələrin hazırlanmasını təmin etmək məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatası Şurasının yanında Keyfiyyətə nəzarət Komitəsinin yeni Əsasnaməsinin hazırlanması və Komitənin tərkibində dəyişiklik edilməsi məqsədəmüvafiq hesab olunsun. Komitənin aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Keyfiyyətə nəzarət Komitəsinin sədri**

| | |
|---|---|
| Bayramov İslam Qurban oğlu | "HLB Azərbaycan" MMC-nin direktoru |

**Keyfiyyətə nəzarət Komitəsinin sədr müavini**

| | |
|---|---|
| Kərimov Nuran Qüdrət oğlu | "Deloitte & Touche" MMAC-nin direktoru |

**Keyfiyyətə nəzarət Komitəsinin üzvləri**

| | |
|---|---|
| Hüseynov Zamin Ramazan oğlu | "MAK AZƏRBAYCAN LTD" MMC-nin direktoru |
| Teymurov Turqay Teymur oğlu | "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkəinin Azərbaycan Respublikasındakı filialının audit üzrə partnyoru |
| İsgəndərov Səməd Mahmud oğlu | Sərbəst auditor |
| Tahirov Rüstəm Şamil oğlu | Azərbaycan Respublikasının Mərkəzi Bankının Prudensial siyasət və metodologiya departamentinin direktor müavini (təqdimata əsasən) |

| | |
|---|---|
| Musayev Oqtay Həsən oğlu | Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Vergi auditi baş idarəsinin rəis müavini, baş vergi xidmət müşaviri |
| Rəhimli Fərid Fuad oğlu | Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Lisenziyalaşdırma və nəzarət şöbəsinin müdiri vəzifələrini icra edən (təqdimata əsasən) |

2. Auditorlar Palatası Şurasının yanında Auditorların Peşə Etikası Komitəsinin yeni Əsasnaməsinin hazırlanması və Komitənin tərkibində dəyişiklik edilməsi məqsədəmüvafiq hesab olunsun. Komitənin aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Auditorların Peşə Etikası Komitəsinin sədri**

| | |
|---|---|
| Salayev Yunis Elxan oğlu | "BDO Azərbaycan" MMC-nin idarəedici partnyoru |

**Auditorların Peşə Etikası Komitəsinin sədr müavini**

| | |
|---|---|
| Bayramova Lamiyyə Qəşəm qızı | "L.B.Audit xidməti" MMC-nin direktoru-auditor |

**Auditorların Peşə Etikası Komitəsinin üzvləri**

| | |
|---|---|
| Abbasov Azər Rasim oğlu | Azərbaycan Respublikası Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin Hüquqi və metodologiya şöbəsinin böyük hüquq məsləhətçisi (təqdimata əsasən) |
| Ələkbərova Şölə Mürşüd qızı | Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin İnsan Resurslarının idarə edilməsi şöbəsinin müdiri (təqdimata əsasən) |
| Paşayev Mövlan Nofəl oğlu | "Praysvoterhauskupers Audit Azərbaycan" MMC-nin Azərbaycan üzrə təmsilçisi |
| Rəhimov Vəli Rəhim oğlu | "Jpa İnternational Azərbaycan" MMC-nin direktoru-auditoru |
| Hacıəzizov İlham İsfəndiyar oğlu | Sərbəst auditor |
| Mahmudova Lalə Əmirali qızı | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin "Dövlət qulluğu və kadr" şəbəsinin Dövlət qulluğu məsələləri sektorunun müdiri (təqdimata əsasən) |
| Mehmanov Mehman Veyis oğlu | Azərbaycan Respublikası Sahibkarlar (işəgötürən-lər) Təşkilatları Milli Konfederasiyasının (ASK) baş katibinin müavini (təqdimata əsasən) |

3. Auditorlar Palatası Şurasının yanında Metodik Komitəsinin yeni Əsasnaməsinin hazırlanması və Komitənin tərkibində dəyişiklik edilməsi məqsədəmüvafiq hesab olunsun. Komitənin aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Metodik Komitənin sədri**

| | |
|---|---|
| İbadov Elçin Telman oğlu | "Praysvoterhauskupers Audit Azərbaycan" MMC-nin Azərbaycan üzrə təmsilçisi |

**Metodik Komitənin sədr müavini**

| | |
|---|---|
| Kərimova Nərgiz Tahir qızı | "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi."şirkətinin Azərbaycan Respublikasındakı filialının audit üzrə baş meneceri |

**Metodik Komitənin üzvləri**

| | |
|---|---|
| Cəfərov Altay Mürsəl oğlu | Sərbəst auditor |
| Hacızadə Anar Fuad oğlu | "Premier Audit Konsaltinq" MMC-nin direktoru |
| İbrahimov Ziya Rafiq oğlu | "Baker Tilly Audit Azərbaycan" MMC-nin idarəedici partnyoru |
| Qurbanlı Ziya Tofiq oğlu | Sərbəst auditor |
| Qurbanov Elnur Məmməd oğlu | Deloitte &Touche» MMAC-nin partnyoru |

4. Auditorlar Palatası Şurasının 2000-ci il 29 aprel tarixli 54/4 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının Təkrar audit üzrə Xüsusi Komissiyası haqqında" Əsasnamə və Palata Şurasının 2003-cü il 4 fevral tarixli 108/3 saylı qərarı ilə müəyyən olunmuş komissiyanın tərkibi ləğv olunsun və "Auditorlar Palatasının Təkrar audit üzrə Xüsusi Komissiyası haqqında" Əsasnamədə nəzərdə tutulmuş işlərin Keyfiyyətə nəzarət və Auditorların Peşə Etikası Komitələri tərəfindən həyata keçirilməsi məqsədəyuğun hesab edilsin.

5. Auditorlar Palatası Şurasının yanında Auditorların ixtisasartırma Komitəsinin yaradılması məqsədəmüvafiq hesab olunsun. Komitənin aşağıdakı tərkibi təsdiq edilsin:

**Auditorların ixtisasartırma Komitəsinin sədri**

| | |
|---|---|
| İsgəndərov Eldəniz İsgəndər oğlu | Sərbəst auditor |

**Auditorların ixtisasartırma Komitəsinin üzvləri**

| | |
|---|---|
| Qurbanov Abbasəli Şükür oğlu | “RR-VAM Beynəlxalq Audit Konsaltinq” MMC-nin direktoru-auditor |
| Süleymanov İlham Süleyman oğlu | “İmdad Audit” MMC-nin direktoru-auditor |
| Namazova Cəmilə Bayramalı qızı | Azərbaycan Dövlət İqtisad Universitetinin professoru |
| Sadıxov Azad Tağı oğlu | “CACS AUDİT” MMC-nin auditoru |

6. Auditorlar Palatası Şurasının yanında fəaliyyət göstərən Keyfiyyətə nəzarət Komitəsinin, Auditorların Peşə Etikası Komitəsinin, Metodik Komitənin və Auditorların ixtisasartırma Komitəsinin rəhbərlərinə (İ.Bayramov, Y.Salayev, E.İbadov, E.İsgəndərov) tapşırılsın ki, bir ay müddətində müvafiq Əsasnamələri və işçi sənədlərini yenidən hazırlayıb təqdim etsinlər.

7. Bu qərar Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**